**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**LİMUNƏ OĞUL qızı YADİGAROVA**

# AZƏRBAYCANIN MONUMENTAL DEKORATIV RƏNGKARLIĞI

**İxtisas:** 6215.01 – "Təsviri sənət"

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Cəmilə Yusif qızı Həzənzadə**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Siruz Yadulla oğlu Mirzəzadə**
*Xalq rəssamı, professor*

**Günay Nizami qızı Qafarova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə 13 dekabr 2018-ci il saat $11^{00}$ - da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 13 noyabr 2018-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru, dosent:** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan təsviri sənətinin tərkib hissəsi olan monumental-dekorativ rəngkarlıq çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olub, özünəməxsus inkişaf yolu keçmiş və mövcud zaman kəsiyində bu sahədə maraqlı sənət nümunələri yaradılmışdır. Bilavasitə ictimai, mülki və sənaye memarlığı, eləcə də şəhər mühitinin formalaşması ilə əlaqəli olmaqla, həm də ictimai mahiyyət daşıyan bu sahənin indiyə qədər əhatəli elmi tədqiqata cəlb olunmaması mövzunun aktuallığını şərtləndirmişdir.

Azərbaycan ərazisində - eramızdan əvvəl Qobustan, Gəmiqaya, Kəlbəcər və Abşerondakı sərt qaya parçalarının üzərində cızılmış insan və heyvan təsvirləri klassik məzmunlu monumental-dekorativ rəngkarlıq nümunəsi kimi qəbul olunmasa da, bədii həllində bu günə kimi də həsədaparıcı hesab olunan estetik dəyərlərin mövcudluğu onların əcdadlarımızın monumental duyumunu ifadə edən bədii qaynaq kimi qəbuluna səbəb yaradır.

Bizim eranın müxtəlif inkişaf mərhələlərində - memarlığın insan həyatının ayrılmaz hissəsinə çevrildiyi dövrlərdə inşa olunan ictimai və mülki tikililərin bəzədilməsinin təbii ehtiyac kimi gündəliyə gəlməsi, həmin binalarda divar rəsmlərinin və heykəltəraşlıq elementlərinin istifadəsini şərtləndirmişdir.

Qafqaz Albaniyasına aid yaşayış məskənlərində incəsənətin müxtəlif sahələrinin mövcudluğu, o cümlədən dekorativ-tətbiqi sənətin və heykəltəraşlıq nümunələrinə rast gəlinməsi insanların yüksək sənətkarlığına malik olduqlarını söyləməyə əsas verir.

Mingəçevirdə b.e. V-VI əsrlərinə aid edilən qoşa tovuz quşu təsvirli daş kapitel və üzəri təsvirli suvaq fraqmentlərinin tapılması da heç şübhəsiz burada - Qədim Albaniyada monumental sənətin inkişafına müsbət təsir göstərən şəraitin mövcudluğunu təsdiqləyir.

Dövrümüzə gəlib çatmamış bir çox memarlıq abidələrindəki dekorativ tərtibat nümunələri əbədi olaraq itirilmişlər. Qədim miniatür təsvirlərində qalmış belə dekorativ tərtibat nümunələri orta əsrlərin memarlıq tərtibatı məsələlərinə aydınlıq gətirməkdə mötəbər mənbə kimi istifadə oluna bilər.

XI-XVII əsrləri əhatə edən monumental rəngkarlıq nümunələrinə əsasən cənubi Azərbaycan ərazisindəki tikililərdə rast gəlmək olur. XVIII - XIX əsrlərdə isə monumental-dekorativ rəngkarlığın Azərbaycan

incəsənətində daha əhatəli yer tutmasını Şəki, Şuşa və İrəvan şəhərlərindəki memarlıq abidələrinin timsalında izləmək mümkündür. Bədii-estetik əhəmiyyət kəsb edən divar təsvirləri Ordubad, Quba və Lahıcdakı tikililərdə də qalmaqdadır.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda yeni iqtisadi-siyasi münasibətlərin yaranması və kommunist rejiminin incəsənətdən bir təbliğat vasitəsi kimi istifadəyə üstünlük verməsi respublikada monumental-dekorativ rəngkarlığın əhatəli tətbiqinə - ictimai-sənaye binalarının, eləcə də küçə və meydanların bədii tərtibatında geniş istifadəsinə yol açmışdır.

Bütün bu inkişafın həm də sənətlərin sintezi kontekstində baş verdiyini və bunun elmi tədqiqata cəlb olunmadığını nəzərə alsaq, onda Azərbaycanın monumental-dekorativ rəngkarlığının tədqiqinin həqiqətən də aktuallıq kəsb etdiyini söyləyə bilərik.

Dissertasiyada xronoloji ardıcıllıqla aparılmış tipoloji və bədii təhlil belə monumental dekorativ rəngkarlığın estetik prinsiplərini, üslub xüsusiyyətlərini, bədii-texnoloji problemlərini müəyyən etməyə imkan verir.

**Problemin işlənmə dərəcəsi.** Azərbaycanın monumental-dekorativ rəngkarlığının inkişaf tarixinin orta əsrlərdən bu günümüzə qədər davam edən təşəkkülü fundamental tədqiqata cəlb olunmasa da, tanınmış sənətşünas Kərim Kərimovun 1983-cü ildə Bakıda Şərq xalçaları üzrə Beynəlxalq simpoziumun keçirilməsi ilə əlaqədar nəşr olunan yığcam həcmli "Divar rəngkarlığı" kitabı bu sahədə görülən iş kimi diqqət çəkir. Çox təəssüf ki, kitab əslində bu nüfuzlu elmi toplantının iştirakçılarına Azərbaycanda divar rəngkarlığının inkişaf tarixi barəsində məlumat verməli olduğu halda, burada yalnız XVI-XVIII əsrlərdə yaradılmış əsərlərin qısa şərhi yer almışdır. Bu cür yanaşmanın onun daha əvvəl "Qobustan" (1971, №1) jurnalında çap olunmuş "Monumental boyakarlıq sənətimizin tarixindən" məqaləsindən qaynaqlandığını görmək mümkündür.

Bu mövzuda görülən ən əhatəli tədqiqat işi kimi sənətşünas Nataliya Miklaşevskayanın 1948-ci ildə "XVIII-XIX əsrlər Azərbaycan divar rəngkarığının inkişaf tarixi" mövzusunda yazdığı namizədlik dissertasiyasını qeyd etmək lazımdır. Onun özündə Şəki Xan sarayı, Şəkixanovların evi, Şuşa və Lahıc yaşayış evlərinin divar rəsmlərinin şərhini əks etdirən bu dissertasiya işi bu yöndə indiyə qədər sənətşünaslığımızda aparılan ən sanballı tədqiqatdır. N.Miklaşevskayanın

“XIX əsrin rəssamları Mirzə Qədim İrəvani və Mir Möhsün Nəvvab” məqaləsi də on doqquzuncu yüzillikdə həmin rəssamlar tərəfindən divar rəssamlığı sahəsində görülən işlərə aydınlıq gətirir. Sənətşünas Ziyadxan Əliyevin 1996-cı ildə çap olunmuş “M.M.Nəvvabın rənglər aləmi” kitabında isə tanınmış fırça ustasının divar rəngkarlığı sahəsində yaratdığı bütün əsərlər barəsində məlumat yer almışdır. Z.Əliyevin Azərbaycan monumental sənətinin birinci respublika sərgisinin keçirilməsi münasibətilə nəşr olunan kataloqa (1989) yazdığı ön sözdə bu sahənin müasir mənzərəsinə qısa şərh verilmiş, sovet dönəmində yaradılan əhəmiyyətli əsərlərin siyahısı, bəzilərinin isə fotoları nəşr olunmuşdur.

Sənətşünas Mürsəl Nəcəfovun yazdığı və 1975-ci ildə işıq üzü görmüş “Советское монументальное искусство-73” toplusunda yer almış “Azərbaycanın monumentalçı rəssamları” məqaləsində bu sahədə fəaliyyət göstərən respublika rəssamlarının yaradıcılığına daha əhatəli münasibət göstərilmişdir.

Rayihə Əmənzadənin yazdığı “Azərbaycan memarlığı XV-XIX əsrin əvvəllərində” (2013), Ramiz Əbdülrəhimov və Nərgiz Abdullayevanın qələmə aldığı “Erkən kapitalizm dövrünün memarlığı XIX-XX əsrin əvvəli (2013), Nizami Nağıyev və Fikrət Hüseynovun müəllifi olduğu “Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi” (2013), eləcə də Elçin T.Əliyevin “Konstruktivizm dövrü. XX əsrin 1920 - 1930-cu illərin Bakı memarlığı” (2013) və Nəriman Əliyevin “Heydər Əliyev və Bakını memarlığı” (2005) kitablarında tikililərin bədii xüsusiyyətlərinin səciyyələndirilməsi zamanı, onları bəzəyən kaşı və divar rəsmlərinə də nisbi olsa da münasibət bildirilmşdir. Eyni zamanda Afət Aslanovanın “Müasir Azərbaycan keramikası” dissertasiya işində monumental dekorativ sənətdə bədii keramikanın səciyyəvi xüsusiyyətləri, Namiq Adbullayevin “Orta əsrlər miniatürləri əsasında interyer və eksteryerlərin bədii həlli” adlı tədqiqat işində isə orta əsr memarlıq tikililərində monumental divar tərtibatları geniş tədqiqat obyekti olmuşdurlar.

Bundan əlavə Bakıda nəşr olunan jurnal-qəzet səhifələrində yaradıcılığında monumental-dekoraiv rəngkarlığın yer aldığı rəssamlara həsr olunmuş məqalələrdə də tədqiqata cəlb olunan məsələlərdən qısa olsa da söz açılmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan təsviri sənətinin ayrılmaz sahəsi sayılan monumental-

dekorativ rəngkarlığın orta əsrlərdən bu günümüzə kimi baş tutan inkişaf tarixini ardıcıllıqla izləmək və şərh etmək, həm də əsərlərin daşıdığı məna-məzmun yükünü və onun şərh olunduğu bədii vasitələrin estetik tutumunu dəyərləndirməkdir.

Tədqiqatın başlıca vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Azərbaycan incəsənətinin monumental-dekorativ rəngkarlıq irsini hazırda tikililəri bəzəyən mövcud olan nümunələrlə yanaşı, həm də bizim günlərə gəlib çatmayan nümunələrlə birlikdə - xronoloji ardıcıllıqla izləmək;

2. Azərbaycan monumental-dekorativ rəngkarlıq nümunələrinin tikililərin memarlıq həllində yerləşdirilməsi yollarını, onların məna-məzmun və forma göstəricilərini, kompozisiya və materialların həmin tərtibatlarda tətbiqini müəyyən etmək və dəyərləndirmək;

3. Memarlıq tikililərinin interyer və eksteryer tərtibatında tətbiq olunmuş monumental-dekorativ rəngkarlıq əsərlərini sənətlərin sintezi probleminin həlli kontekstində şərh etmək və bu vəhdətin necəliyini qiymətləndirmək;

4. Müxtəlif dövrlərdə inşa olunmuş tikililəri bəzəyən monumental-dekorativ rəngkarlıq nümunələrinin tərtibat prinsiplərini, metodlarını və ifadə üslublarını müəyyən etmək;

5. Monumental-dekorativ rəngkarlıq əsərlərinin rəng-kolorit, ritm və faktura məziyyətlərini aydınlaşdırmaq və qərarlaşdığı məkana bəxş etdiyi estetikanı dəyərləndirmək;

6. Azərbaycan monumental-dekorativ rəngkarlıq nümunələrində materialdan istifadənin sənətlərin sintezi məsələsinə təsirini şərh etməklə dəyərləndirmək;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını müxtəlif dövrlərdə memarlıqda tətbiq edilən monumental-dekorativ rəngkarlıq nümunələrinin bədii xüsusiyyətlərinin, bədii-estetik dəyərinin və tarixi-fəlsəfi yükünün üzə çıxarılması ilə müqayisəli təhlili təşkil edir. Problemin tədqiqində tarixi-müqayisəli və sənətşünaslıq təhlil metodu tətbiq olunmuşdur.

Tədqiqat zamanı mövzunun araşdırılması prosesində həm monumental-dekorativ rəngkarlığımızın inkişafı xronoloji ardıcıllıqla, sistemli izlənilmiş, həm də bu sahədə yaradılmış sənət əsərlərinə xas olan bədii ifadə axtarışlarındakı fərqli bədii-estetik və texniki

məziyyətlər tarixi-xronoloji ardıcıllığa əsaslanan təhlil sistemli şəkildə aparılmışdır.

Bütün bunlarla yanaşı tədqiqatın əsas metodu kimi mədəni-tarixi, tarixi-bədii və müqayisəli-tarixi metodlar, sənətşünaslığın elmi-nəzəri müddəaları, o cümlədən elmi, ədəbi və arxiv materiallarının kompleksli şərhinə, sistemləşdirilməsinə əsaslanır. Tədqiqatın metodologiyası kompleks şəkildə aparılmış, dissertasiyada materiallar xronoloji prinsip əsasında təhlil edilmişdir. Dissertasiyanın yazılışında müasir kulturoloji fikrin və sənətşünaslığın nəzəri müddəaları və nəticələrindən istifadə edilmişdir. Metodoloji baza kimi dünya və Azərbaycan tədqiqatçılarının və sənətkarların bu mövzuya həsr olunmuş fikirləri, dəyərləndirmələri və nailiyyətləri çıxış etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini əsasən orta əsrlərdən başlayaraq müasir dövrədək Azərbaycanın monumental-dekorativ rəngkarlığı sahəsində yaradılan sənət nümunələri təşkil edir.

Tədqiqatın predmetini orta əsrlərdən müasir dövrədək memarlıq abidələrində monumental-dekorativ tərtibat vasitələrinin və üsullarının istifadəsi, interyer və eksteryerlərdə mövcud olmuş monumental rəngkarlıq nümunələrinin inkişafının izlənməsi təşkil edir. Monumental-dekorativ tərtibatlarda məzmun və forma vəhdəti, sintez problemləri və tərtibatın memarlıq forması, konstruksiyası ilə uyğunluğunun müəyyən edilməsi tədqiqat predmetinin göstəricilərindən biri sayılır.

**Dissertasiyanın hüdudları.** Dissertasiyanın coğrafi hüdudlarını Azərbaycanın bölünməsinə qədərki dövrdən başlayaraq yaradılan və memarlıq tikililərinin ayrılmaz bəzəyinə çevrilmiş monumental-dekorativ rəngkarlıq nümunələrin mövcud olduğu ərazilər təşkil edir. Azərbaycanın incəsənətinə şimallı-cənublu baxışla, o cümlədən də monumental-dekorativ rəngkarlığını bir araya gətirib tədqiq və təhlil etməklə, milli incəsənətimizin bu sahəsində baş verən inkişaf tarixini dəyərləndirmək mümkündür. **Tədqiqatın zaman çərçivələri** erkən orta əsrlərdən başlayaraq müasir zamandək olan dövrü əhatə edir.

**Tədqiqatın yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq Azərbaycan memarlıq abidələrində tətbiq olunmuş monumental-dekorativ rəngkarlıq nümunələri xronoloji ardıcıllıqla bütün orta əsrlərdən müasir dövrə qədər sistemli şəkildə təhlil və tədqiq olunmuşdur. Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

Tədqiqata Azərbaycan monumental-dekorativ rəngkarlığının inkişafına və onun ideya tutumuna təsir göstərən əsas amilləri aşkara çıxaran geniş material cəlb olunmuşdur;

- Tədqiqatın dolğun alınması üçün yeni və müxtəlif dövrəri əhatə edən mənbələrin sistemləşdirilməsi, xronoloji ardıcıllıqla təhlili əsasında orta əslərdən müasir dövrədək monumental-dekorativ tərtibat işlərinin təzahür formaları və inkişaf istiqamətləri daha əhatəli öyrənilmişdir.

- Tədqiqat qarşısında ilk dəfə qoyulmuş və həll olunmuş problem müxtəlif dövrlərdə inşa olunmuş memarlıq tikililərin dekorlarının monumentallığının əldə olunması prinsiplərinin müqayisəli şəkildə təhlil olunmuşdur.

- Tikililərin dekorativ tərtibatında özünəməxsus səciyyəvi xüsusiyyətlərin büruzə verilməsi dissertasiyada faktiki materiallar və müqayisəli təhlil ilə təsdiqini tapmışdır.

- Bu günə qədər tədqiqat obyektinə çevrilməmiş müasir dövr monumental-dekorativ rəngkarlıq nümunələri də məna-məzmun, bədii-texniki xüsusiyyətləri ilə ilk dəfə tədqiq olunmuşdur.

- Müasir dövrə aid monumental-dekorativ rəngkarlıq nümunələrinin inkişafına və onun ideya tutumuna təsir göstərən əsas amillər ilk dəfə tədqiq olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat işi ilk növbədə Azərbaycan təsviri sənətinin öyrənilməsi məsələsində yeni bir addım olmaqla, bütünlükdə milli incəsənət tarixinin dərinləşdirilməsinə və genişləndirilməsinə xidmət edir.

Dissertasiyada yer almış faktların və gəlinən qənaətlərin ümumi tutumu onun bu sahə üzrə gələcək nəzəri və estetik tədqiqatlarda qaynaq kimi istifadəsini gərəkli edir. Tədqiqatın materialları onun bədii təmayüllü orta və ali məktəb tələbələri üçün dərs vəsaiti kimi istifadəsinə imkan verir.

Tədqiqat nəticəsində əldə olunmuş nəticə, müddəa və qənaətlər özündə memarlıqda və təsviri sənətdə tətbiq olunanların qovşağını hifz etdiyindən, eləcə də bu sahədə ayrıca və ümumiləşdirici elmi məlumatın olmaması səbəbindən “Azərbaycan incəsənəti tarixi” fənninin tədrisində, həm də xüsusi kurs kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin memarlıq, təsviri sənət və incəsənət tarixi ixtisaslarında təhsil alan tələbələr üçün köməkçi

dərs vəsaiti kimi istifadə oluna bilər. Dissertasiya həmçinin etnoqraf, tarixçi və sənətşünasların yararlana biləcəyi dəyərli vasitədir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedra iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 8 elmi məqalədə öz əksini tapmışlar.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi Giriş, iki fəsil, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu 148 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəkilində dissertasiyaya Əlavə kimi təqdim olunmuşlar.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində tədqiqatın aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, metodoloji əsasları, tədqiqatın sərhədləri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, eyni zamanda tədqiqatın aprobasiyası və strukturu haqqında məlumat verilir.

**"Azərbaycan monumental – dekorativ rəngkarlığı ənənələrinin formalaşması"** adlanan I fəsil iki – **"Orta əsrlər kaşılı divar pannolarında monumentallığın əldə olunması mərhələləri"** və "**Orta əsrlərdən XX əsrə qədərki dövrün divar rəsmlərinin estetikasi"** adlı yarımfəsillərini əhatə edir.

"**Orta əsrlər kaşılı divar pannolarında monumentallığın əldə olunması mərhələləri"** yarımfəsli monumental sənətin ilk işartılarının ibtidai cəmiyyətlə bağlı olması qarşılığında onun incəsənətin yer üzündə ən qədim növlərindən biri kimi insanların gerçəklik haqda təsəvvürlərinin ifadəsi olaraq özündə memarlığı və rəngkarlığı birləşdirən, elə yaranışından təxəyyülü duyğulandırmaq gücündə olan bədii ismarış ötürən ilk nümunələrindən və orta əsr memarlıq abidələrində kaşı sənətinin tikililərin tərtibatında əsas material kimi istifadəsindən və memarlıqda rəngin tətbiqi məsələlərindən bəhs edir.

İbtidai cəmiyyətin zamanın axarında bir-birindən fərqli dövrlərlə əvəzlənməsi, monumental sənətin mahiyyətinə və funksiyasına etdiyi köklü dəyişiklik bəxş etməsə də, bilavasitə real həyatda baş verənlərin bədiiləşdirilməsini əhatə edən bu sənətin çox vaxt hər bir dövrün siyasi-ideoloji tələblərindən asılı olması ilə bağlı qabarıq xüsusiyyətləri açıqlanır. Bu da monumental sənətin mağara-qaya və qayalardan küçə-

meydan tərtibatına qədər uzanan təşəkkül tarixi onun forma-məzmunu ilə yanaşı, məna-məzmununa da yeniliklər gətirdiyi vurğulanır.

Qədim zamanlardan cəmiyyətin mənəvi tələbatına çevrilən monumental-dekorativ rəngkarlığın bu qədər geniş yayılmasını ilk növbədə bu sahənin insanın gündəlik həyatında və onu əhatə edən mühitdə mühüm yer tutması ilə əlaqələndirmək olar.

Monumental sənətin memarlıqla vəhdətdə gerçəkləşən və zənginləşən bədii məzmununun həm də dekorativləşməsi, bu günümüzə kimi davam edən inkişafında onun daha təsirli tərtibat vasitəsi rolunu müəyyənləşdirmiş və bu proses monumental-dekorativ sənətin Azərbaycanda keçdiyi çoxəsrlik inkişaf tarixi, təşəkkülü əsasında izlənilir.

Yarimfəsildə eyni zamanda dövrümüzə gəlib çatmamış lakin Şərq poetik mənbələrində yer alan məlumatlara istinad edərək, orta əsrlər mədəniyyət və incəsənətində ortaq bədii-estetik xüsusiyyətlərin duyulduğu İran-Azərbaycan ərazisində rəssamlığın geniş yayıldığını təsdiqləyən faktlar vurğulanır.

Şərqin tanınmış poeziya ulduzları Firdovsi və Hafizin əsərlərində də rəssamlığın qədim dövrlərdə mövcudluğuna, Mani (III əsr) sənətkarlığının vəsfinə rast gəlmək mümkündür. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin “Xosrov və Şirin” və “İsgəndərnamə” poemalarında da Mani və onun sehrkar rəssamlığından söz açılır.

Bizim eranın müxtəlif inkişaf mərhələlərində - memarlığın insan həyatının ayrılmaz hissəsinə çevrildiyi dövrlərdə inşa olunan ictimai və mülki tikililərin bəzədilməsinin təbii ehtiyac kimi gündəliyə gəlməsi, həmin binalarda divar rəsmlərinin və heykəltəraşlıq ayrıntılarından istifadəni şərtləndirmişdir. Azərbaycanın müxtəlif bölgələrində (Mingəçevir, Qax və Qəbələ) aparılmış arxeoloji qazıntılar zamanı Qafqaz Albaniyası mədəniyyətinin zəngin bədii-estetik tutumunu özündə hifz edən külli çoxsaylı maddi-mədəniyyət nümunələrinin aşkarlanması da dediklərimizi təsdiqləyir.

Mingəçevirdə b.e. V-VI əsrlərinə aid edilən qoşa tovuz quşu təsvirli daş kapitel və atlı təsvirli relyefin, eləcə də üzəri təsvirli suvaq fraqmentlərinin tapılması da heç şübhəsiz burada - Qədim Albaniyasında memarlıqla monumental sənətin vəhdəti məsələlərinə diqqət yetirildiyini, onun inkişafına müsbət təsir göstərən şəraitin olduğunu təsdiqləyir.

Yazılı mənbələrdə də Qafqaz Albaniyası məbədlərində divar rəsmlərinin mövcudluğu barəsində məlumatlar vardır. Bunu Musa

Kalankatlının memarlıq üzrə elmlər doktoru Gülçöhrə Məmmədovanın "Qafqaz Albaniyasının dini memarlığı" adlı tədqiqatında yer almış "Aqvanın şöhrətli hökmdarı Cavanşir öz məbədini günbəzdən tutmuş giriş qapısına qədər bəzəməklə, onun üzərini ipək materiallarla örtmüşdü" fikri də təsdiqləyir [1].

Orta əsrlərə aid edilən miniatürlərdə sarayların interyerlərini bəzəyən, onların gözəlliyini birəbeş qat artıran divar təsvirləri ilə qarşılaşırıq. Bu məsələyə həsr olunmuş tədqiqat əsərində belə qeyd olunub: "Orta əsrlərin əlyazma kitablarında dünyəvi feodal düşüncəyə əsasən, klassik ədəbiyyatın müxtəlif süjetlərini əks etdirən miniatür-illüstrasiyalar yaranmışlar. Bu miniatürlərdə bir çox hallarda, hadisələr müxtəlif növ və təyinatlı memarlıq tikililərinin interyerində və ya eksteryerində təsvir olunmuşlar. Belə təsvirlər sinxron mənbə kimi o dövrün dekorativ tərtibat problemlərini araşdırmaq imkanları yaradırlar"[2].

Monumental-dekorativ rəngkarlığın orta əsrləri əhatə edən işartılarına, eləcə də divarlarda rəng və kaşı-smalta vasitəsilə ifadə olunacaq bədii tutumunun tarixçəsinə aydınlıq gətirməli olsaq, onda qədim dövr sənətkarlarının sənətlərin sintezi məsələsini münasibətlərini daş oymalarda, kəc frizlərdə, kaşı bəzəklərində gerçəkləşdirdiklərini qeyd etməliyik. Şamaxı, Gəncə, Naxçıvan, Marağa, Mingəçevir, Təbriz və başqa şəhərlərdə inşaat texnikasının baş tutan yüksək tərəqqisi axarında müxtəlif funksiyalı tikililərdə ayrı-ayrı sənət növlərinin memarlıqla qovşağının yaratdığı estetik auranın həm də sənətkarların formalaşan estetik duyumunun göstəricisidir.

Naxçıvandakı Möminə xatun və Yusif Küseyir oğlu, eləcə də Qarabağlar, Təbrizdəki Göy məscid, Bərdədə yerləşən Bərdə türbəsi, Şirvandakı Pir Hüseyn Xanəgahındakı dekorativ bəzəkləri klassik mənada divar rəsmləri və mozaik tərtibat nümunələri kimi qəbul etməsək də, bu kaşılı pannoların hər birində memar təxəyyülündən süzülüb gələn estetik duyumunun bilavasitə tikilinin bədiiliyinin əldə olunmasına yönəldiyi danılmazdır.

---

[1] Мамедова Г.Г. Культовое зодчество Кавказской Албании. Баку, Элм. 1997. с.182

[2] Abdullayev N. Orta əsrlər miniatürləri əsasında interyer və eksteryerlərin bədii həlli (Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcə almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı). Bakı, MBM.2013, s.30.

Orta əsrlər Azərbaycan mədəniyyəti və incəsənəti tarixində İntibah mərhələsi kimi dəyərləndirilməyə layiq olan Səfəvilər dövrünün Şeyx Səfiəddin İshaq Ərdəbilinin kompleksinə daxil olan tikililərin kaşı bəzəkləri bizim günlərə gəlib çatmış və bu kompleksin hər bir tikilisinin estetik qaynaq kimi qəbulunda onların kaşılardan tərtib olunmuş panno-dekorunun xüsusi rol oynaması birmənalıdır. Orta əsrlər Azərbaycan memarlığında polixromiyanın geniş tətbiq olunduğunu bilavasitə Ərdəbildə inşa olunmuş tikililərdə izləmək olar. Əslində bu təşəkkül Təbrizdəki Göy məsciddə tətbiq olunan kaşı dekorunun yeni inkişaf mərhələsi olmuşdur.

Isfahandakı "Çehel sütun" sarayında bu gündə qalmaqda olan kaşılı divar pannosu Səfəvilər dövründə bu yöndə yaradılmış maraqlı nümunələrindən biri sayılmaqdadır.

Bu ənənənin davamını Avşarlar dövründə də müşahidə etmək mümkündür. 1781-ci ildə ərsəyə gətirilən və mövzusu Kərbala müsibətlərinə həsr olunmuş panno (müəllifi Məhəmməd Modaber) bu mənada diqqətçəkəndir. Qacarlar dövründə kaşılı divar pannoların memarlıqda istifadəsi və bu tendensiyanın XIX əsrin ikinci yarısında daha güclənməsi, həm də onların yaradıcılarının gələcək nəsillər üçün zəngin örnək qoyub getdiklərini sərgiləyir.

**"Orta əsrlərdən XX əsrə qədərki dövrün divar rəsmlərinin estetikasi"** adlanan II yarımfəsildə divar təsvirlərinin bədii estetikasından söz açılır. Monumental rəngkarlığın bilavasitə boyalarla gerçəkləşən və memarlıqla əlaqəli olanlarının ilkin nümunələri zamanın sərt sınaqlarından keçib bizim dövrə gəlib çatmasa da, arxeoloji qazıntılar zamanı üzə çıxarılmış divar təsvirlərinin fraqmentləri onların Qafqaz Albaniyası incəsənətində mövcud olduğundan xəbər verir. L.Bretanitski və B.Veymarn Mingəçevirin Sudaqılan adlanan şəhərciyindəki dini tikilidə qazıntılar zamanı üzə çıxarılmış müxtəlif nümunələrin timsalında burada yüksək mədəniyyət daşıyıcısı olan daşoyma və divar rəsminin mövcudluğunun danılmaz olduğunu qeyd etmişlər.

Cənubi Azərbaycandakı Xərrəqan türbələrində (XI əsr) orta əsrlərə aid monumental divar rəngkarlığının yaddaqalan nümunələri qalmaqdadır. Həmin abidələri tədqiq edən Cəfər Qiyasi bu barədə yazır: "Türbənin gəclə suvanmış iç səthlərində - taxçaların içərisində, səkkizüzlünün tağçalararası künc səthlərində, iç günbəzi aşağı hissəsində səlcuqlar dövrünün nadir divar rəsmləri qalmışdır... "Günəş işıqlı"

tağçaların arasındakı səthlərdə “həyat ağacı” yerləşmişdir. Simmetrik ağac təsviri cənnət simvolu olan iri nar ilə tamamlanır. Ağacın ucu səmanı təmsil edən xətlərə söykəmişdir. Köhnə əqidəyə görə, “həyat ağacı” göy ilə yeri bir-birinə bağlayır. Ağacın hər tərəfində isə iki quş çəkilmişdir” [3].

Orta əsrlər tarixinin sonrakı səhifələrini vərəqləməli olsaq, onda həmin dövrlərin təzadlı hadisələrinə baxmayaraq, bir çox hökmdarların hakimiyyəti dövründə təsviri və tətbiqi sənətin yeni-yeni estetik tutumla zənginləşdiyini görə bilərik.

Orta əsrlər Azərbaycan incəsənətinin çiçəklənmə dövrü kimi dəyərləndirilən Səfəvilər dövründə isə monumental-dekorativ divar rəngkarlığı özünəməxsus bədii-estetik məziyyətlərlə zənginləşmişdir. Əsasən həmin dövrün saraylarının ayrılmaz bəzəyinə çevrilən bu divar rəsmlərinin bədii həllində həm o zaman, həm də sonralar təsviri və tətbiqi sənətin əksər sahələrini əhatə etmiş miniatür üslubunun estetikasının təzahürlərini görmək mümkün idi.

Azərbaycanda olmuş səyyah, rəssam və alimlərin rəsm və yazılarında divar rəngkarlığı haqqında məlumatlar verilməsinə baxmayaraq, yalnız XIV-XVII əsr Təbriz miniatürləri əsasında onların məzmun və bədii üslubunun müəyyənləşdirilməsi mümkün olmuşdur.

Əmir Teymur tərəfindən əsir götürülən Təbriz rəssamları tərəfindən Baysunqur-mirzə üçün hazırlanan 1430-cu il “Şahnamə”sində əksərən monoxrom divar təsvirlərinə rastlayırıq.

Memarlıqla bağlı olan divar rəngkarlıq nümunələri müstəqil deyil, bina ilə bir harmoniyada təzahür edir. Orta əsrlərdə monumental divar təsvirlərinin əksərən sarayların interyerlərində geniş vüsət alması barədə maddi və yazılı mənbələrdə məlumatlar çoxdur.

XVIII əsrin sonlarından Avropa meyllərinin güclü axını nəticəsində islam kanonları əsasında formalaşmış müsəlman təsvir üsulu Avropa üsulu ilə toqquşur. Ölkələr arası genişlənən siyasi-iqtisadi əlaqələr mədəni əlaqələrin inkişafına öz təsirini əsirgəmirdi. Tezliklə saray divarlarında saray məclisləri təsvir olunan freskalarda yeni meyllər öz əksini tapır.

Məhəbbət, ov səhnələri, müharibə mövzuları əks olunmuş Dərbənd evlərindən biri, güzgülərlə, arabesk ornamentlərilə, Abbas

---

[3] Qiyasi C. Xərrəqan türbələri və Azərbaycan Səlcuq dövrü memarlığı // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri.”Ədəbiyyat, dil və incəsənət” seriyası. Bakı,1974, №4.

Mirzə, Şah İsmayıl kimi tarixi şəxsiyyətlər, İran-türk müharibələri təsvir olunmuş batal kompozisiyalı Təbrizdəki Bəylərbəyi sarayı, İrəvandakı Sərdarlar sarayının, Qəzvindəki Çehel sütun sarayının divar rəngkarlığı haqqında məlumatlar məhz bu cür yazılı mənbələr əsasında öyrənilmişdir.

XVI-XVII əsrlərdə bir çox sənət növləri yüksək inkişafa çatmasına baxmayaraq, XVIII əsrin əvvəlllərində artıq tənəzzül dövrü başlanır. Bu bir tərəfdən estetik dəyərlərin dəyişilməsi, yeni realistik Avropa təsvir metodlarının müdaxiləsi ilə klassik islam təsvir ənənələrinin Avropa təsvir sistemiylə əvəz olunması ilə bağlı idi. Digər tərəfdən isə siyasi-iqtisadi böhranla əlaqəli olmuşdu: ölkədə baş verən feodal pərakəndəliyi və "iqtisadi tənəzzül dövründə böyük zəhmət hesabına xüsusi hazırlanma prosesi tələb edən, yüksək məbləğə başa gələn kaşı keramikalarının hazırlanması artıq sifarişçinin imkanı çərçivəsindən çıxmışdı. Beləliklə, XVIII əsrdən başlayaraq divar rəngkarlığı memarlıq dekorasiyasından bədii keramikanı sıxışdırıb çıxartdı və monumental dekorativ sənətin əsas növünə çevrildi."[4]

XVIII, həm də XIX əsrin divar rəsmlərində Azərbaycan monumental-dekorativ rəngkarlığı özünəməxsus bədii-estetik xüsusiyyətləri ilə seçilməkdədir. XVIII-XIX əsrlərin divar rəsmlərini tədqiq edən sənətşünas N.Miklaşevskaya bu dövrə aid abidələri bütünlükdə belə səciyyələndirir: "Bədii icra sənətkarlığına görə divar rəsmlərinin inkişafı zəifləməyə meylli olub: XVIII əsrin nümunələri bütün mənalarda ən yaxşı sayıla bilərlər; XIX əsrdəkilər yaxşı olmaqla, bir çox hallarda XVIII əsrin üsullarını təkrarlayır, müəyyən mənada isə onlardan geri qalırlar." [5]. Bunu Şəki xan sarayının interyerini bəzəyən müxtəlif dövrlərə aid divar təsvirlərində də müşahidə etmək olar.

XVIII-XIX əsr divar təsvirlərinin bütün təsvir xüsusiyyətlərini tam şəkildə özündə əks etdirən Azərbaycanın unikal memarlıq abidələri siyahısına daxil olan Şəkixanovların, Şuşada Mehmandarovların və Səfibəyovların evində öz əksini tapan divar təsvirlərinin əsas motivləri gül-çiçəklər, marallar, ceyran, bülbül və s. müxtəlif tərzdə bir-birinə sarmaşan mürəkkəb kompozisiyaları təşkil edirdi.

---

[4] Керимов К. Стенная роспись. Б., 1989.

[5] Миклашевская Н. Стенные росписи Аербайджана XVIII-XIX веков. В книге "Искусство Азербайджана" (IV том). Баку, 1954. 254 стр.

Lahıcda, Qubada və Ordubadda mövcud olan divar rəsmlərinin bədii həllində də Azərbaycan monumental-dekorativ sənətinin estetikasını tamamlayan bədii məqamlar kifayət qədərdir. "XIX əsrin birinci yarısında ərsəyə gətirilən Lahıcdakı yerləşən iki mərtəbəli yaşayış evinin divar rəsmləri bədii ruhuna görə Şəkidəki iki məşhur tikilinin bədii həlli ilə uyğunluq yaradandır. Yerli sakinlərin dediyinə görə tikili usta Hacı Baba tərəfindən tikilmiş, divar təsvirləri isə usta Əşrəfə məxsusdur"[6] .

Tədqiqatın **"Azərbaycan monumental-dekorativ rəngkarlığı sənətlərin sintezi probleminin həlli kontesktində"** adlanan II fəslində Azərbaycanda monumental-dekorativ sənətinin peşəkar səviyyədə ən inkişaf etdiyi dövrə həsr olunub. Bu fəsil də öz-özlüyündə iki - **"XX əsrdən müasir dövrədək olan divar rəsmlərinin bədii xüsusiyyətləri"** və **"XX əsrdən müasir dövrədək olan mozaikaların sintez probleminin həllində rolu"** adlı yarımfəsillərdən ibarətdir.

Birinci yarımfəsildə monumental-dekorativ rəngkarlığın mühitin formalaşmasındakı rolundan bəhs edilir. Memarlıqdan başlayaraq təsviri və tətbiqi sənətin bütün növlərində yaradılan əsərlərə bənzərsizlik və möhtəşəmlik bəxş etməsi ilə diqqət çəkən, onların hər birinin spesifikasına uyğun bədii məzmun almasında əsas önəm kəsb edən monumentallıq uzun əsrlərdir ki, ən mürəkkəb ideyanın daşıyıcısı və ifadəçisi, duyğulandırıcı estetik qaynaq kimi mövcud olmaqdadır.

"Monumental sənət" termini XX əsrin ortalarında meydana gəlmişdir. Mənbələrdə "Monument, monumental sözü latınca "*monere"* felindən yaranaraq çox mənalar ifadə edir: xatırlamaq, yada salmaq, adlandırmaq, təlqin etmək, ruhlandırmaq ..."[7] mənasını bildirir və təsviri sənətin bu növünə mühüm hadisə və şəxslərin xatirəsinə hazırlanmış kifayət qədər iri həcmli abidələr, həmçinin konkret olaraq hər hansı bir memarlıq tikilisinin, şəhər, park ansambllarının heykəltəraşlıq, rəngkarlıq, mozaika, vitraj və s. bəzədilmiş nümunələrdən ibarət məkanla əlaqəli plastik sənət növləri daxildir.

Morfoloji məzmunca monumental incəsənət "elə bir məkan sənət növüdür ki, o memarlıq tikilisi ilə birgə ətraf mühitin formalaşmasında

---

[6] Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. 1963.

[7] Толстой В.П. Монументальное искусство СССР. Изд.во «Советский художник», М. 1978 с.551.

da iştirak edir,... monumental incəsənət əsəri ictimai şüurun, eyni zamanda real insan mühitini formalaşdırır” [8].

İncəsənətdə “monumentallıq” termini bədii obraza malik plastik formalarla ifadə edilən ictimai əhəmiyyətli məzmunun “təzahür forması” kimi anlaşılır. Bütün bunların nəticələri olan əsərlər isə bir nümunə olaraq nəzərləri cəlb etməklə nələrisə yada salmaq, xatırlatmaq, örnək olmaq və iftixar etdirmək məqsədi daşıyır.

“... Bir sıra monumental sənət nümunələri hər hansısa bir ali ideya daşıyıcısı olmayaraq, memarlıqda akkompanement, divarların, fasad və digər səthlərin dekorativ tərtibatı rolunu oynayır”[9].

Orta əsrlərdən fərqli olaraq iyirminci yüzilliyi əhatə edən Azərbaycanın monumental dekorativ rəngkarlığının məna-məzmununun kifayət qədər yeniləşməsi 1920-ci ildən başlayaraq nə qədər ölkənin çox fərqli bir iqtisadi-siyasi sistem çərçivəsində mövcudluğu ilə bağlı idisə, onun forma-məzmun və texniki vasitələrlə zənginləşməsi həm mühitin, həm də zamanın yaradıcılara bəxş etdiyi müxtəlif imkanlarla bağlı idi. Amma Azərbaycanın sovetləşməsinə qədərki yeni əsrin iki onilliyində də monumental sənət sahəsində müəyyən işlər görülmüşdü.

Zamanında aparılan araşdırmalar da bunu söyləməyə əsas verir: “XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakının neft sənayesinin mərkəzi kimi çox sürətli inkişafı baş verməkdə idi. Burada geniş şəkildə inşaat işləri aparılır, ornamentli-dekorativ və süjetli-mənəzərə xarakterli divar rəsmlər təsvir olunan çoxmərtəbələri yaşayış evləri və ictimai əhəmiyyətli binalar tikilirdi... Süjetli-tematik “Şərq motivləri”nə həm də Bakı, Gəncə, Quba və Azərbaycanın digər şəhərlərindəki ictimai hamamlarında rast gəlmək mümkün idi” [10].

Sovet dövrü qurulduqdan sonra başlanan yeni mərhələdə Bakıda zəngin tarixi və bədii ənənələrə malik olan Azərbaycan monumental-dekorativ rəngkarlığının yeni nümunələrini yarada biləcək yerli rəssamlar yox idi. İyirminci illərdə Bakıda təşkil olunan ilk rəssamlıq məktəbi məzunlarının bu sahədə fəaliyyətinə isə yalnız ötən əsrin otuzuncu-qırxıncı illərində şahidlik etmək mümkün oldu.

---

[8] Аполлон: Изобразительное и декоративно-прикладное искусство. Архитектура: терминол. словарь. – М.: Эллис Лак, 1997)

[9] Толстой В.П. Монументальное искусство СССР. Изд.во «Советский художник», М. 1978 с.551

[10] Наджафов М. Художники-монументалисты Азербайджана // В сборнике “Советское монументальное искусство-73”. Москва,1975. 160 стр.

Müharibədən qabaqkı dövrdə Ümumittifaq kənd təsərrüfatı sərgisinin Azərbaycan pavilyonunu, Bakıda Nizami muzeyini və başqa ictimai binaları tərtib edərkən rəssamlar monumental-dekorativ sənətin formalarından, başlıca olaraq ornament naxışlarından geniş istifadə edirdilər. Lakin, rəssam Aleksandr Plaksin tərəfindən çəkilən pannolar istisna edilərsə, o zaman tematik divar rəssamlığı üzrə aparılan iş heç də qənaətəndirici deyildi. Bunun başlıca səbəbi bizdə monumental-dekorativ rəssamlığının spesifikasına yaxşı bələd olan mütəxəssislərin olmaması ilə əlaqədardır” [11].

Müharibədən sonrakı ilk qərinədə monumental-dekorativ rəngkarlığın həm də say etibarilə çoxalmasının təsadüfi olmadığını vurğulamaqla, bunun bilavasitə bu sahəyə həm də yeni gənc qüvvələrin gəlişi ilə bağlı olduğunu deməliyik. Bu mənada Moskva və Sankt-Peterburq şəhərlərindəki nüfuzlu təhsil ocaqlarında (indiki Q.Stroqanov adına Moskva Bədii-Sənaye Akademiyası və A.Ştiqlits adına Sankt-Peterburq Bədii-Sənaye Akademiyası, Muxina adına Ali Bədii Sənaye Məktəbi) oxuyan və bu sahənin tanınmış ustalarından monumental sənətin bədii-texniki vərdişlərini öyrənən Oqtay Şıxəliyev, Tofiq Ağababayev, Arif Ağamalov, Qorxmaz Əfəndiyev, Hüseyn Hüseynov Hacıbala Rəcəbov, Rəhim Məmmədov və b. respublikada davamlı olaraq ərsəyə gətirilən monumental sənət nümunələrinin – divar rəsmlərinin və mozaikaların müəllifləri kimi adlarını çəkmək olar.

50-ci illərin sonlarında bir çox monumental tutumlu divar rəsmlərin yaradılmasında da adları çəkilən yaradıcıların böyük əməyi olmuşdur və onların müəllifi olduqları monumental divar təsvirlərinə barəsində zamanında böyük marağa səbəb olmuş və dövrü mətbuatda da geniş qeyd olunmuşdur.

70-80-ci illər Azərbaycan monumental-dekorativ rəngkarlığı sahəsində yeni-yeni əsərlərin yaradılması ilə əlamətdar olmuşdur. Həmin əsərlərin yaradıcıları sırasında həm yaşlı nəslin nümayəndələrinə, həm də bir çox yeni adlara rast gəlmək mümkündür. Əgər o vaxt O.Şıxəliyev, Q.Əfəndiyev, Z.Mütəllibov, R.Heydərzadə və Ə.Əhmədov kimi monumentalçıların adları ictimailəşən tərtibat işlərinə görə sənətsevərlərə artıq tanış idisə, onlar üçün Şamil Buksayev, Siruz Mirzəzadə, İsmayıl Məmmədov, Elmas Hüseynov, və b. adları yeni idi.

---

[11] Həbibov N. Azərbaycan sovet rəssamlığı. Bakı 1966, 210 s.

Azərbaycan monumental sənətinin ayrılmaz hissəsi olan divar rəsmlərinin XX əsri əhatə edən bütün dövrlərinin tədqiqi bədii proseslərin davamlı yeniləşməsi kontekstində baş tutan inkşafının göstəricisidir.

Azərbaycan müstəqillik qazandıqdan sonra (1991) müasir incəsənətin bütün sahəsində cəmiyyətdə baş verən hadisələrə münasibət dəyişdi. Yeni ideyalar, motivlər, mövzular yaranaraq təsviri sənətin bir çox sahəsində yeni səhifə açılsa da bunu monumental dekorativ-rəngkarlığa aid etmək olmazdı. Son illərdə Azərbaycan təsviri sənətinə müasir düşüncəli yaradıcı gənc "beyin"lərin gəlməsi monumental divar rəngkarlığının inkişafıyla bağlı gələcək ümudlərin ölməməsinə böyük inam yaradır. Məzmun, forma, təsvir üsulu tərzi dəyişsə də bu günün rəssamı gerçəkliyə münasibətini cəmiyyəti "tərbiyələndirən", maarifləndirən böyük ideyalara söykənən mövzulara deyil, sadə, səmimi, insanlara daha rahat olan mövzularla ifadə edirlər. Əsas məqsəd isə tamaşaçının diqqəti çəkib dialoqa cəlb edərək müxtəlif səhnələrlə qarşı-qarşıya qoymaqdır.

İkinci Dünya müharibəsindən sonra keçmiş SSRİ məkanında geniş vüsət alan quruculuq və abadlıq işlərinin nəticəsi olaraq yeni inşa olunan müxtəlif funksiyalı binaların özünəməxsus estetik dəyər almasında onların eksteryerlərinin və interyerlərinin mozaik panno və divar rəsmləri ilə bəzədilməsinin rolu danılmazdır. Bu barədə **"XX əsrdən müasir dövrədək olan mozaikaların sintez probleminin həllində rolu"** adlı ikinci yarımfəsildə söz açılır.

Bu prosesin professionallıqla icrasında respublikada bu sahədə yüksək səviyyəli əsərlər yarada biləcək sənətkarların olmasının da az əhəmiyyəti olmamışdır. Belə rəssamların Azərbaycanda fəaliyyəti yalnız müharibən sonra - gənc yerli kadrların SSRİ-nin mərkəzi şəhərlərində monumental sənət üzrə ixtisas təhsili almalarından sonra baş tuta bildi.

60-70-ci illər Azərbaycan incəsənətində orta əsrlərin sonlarında mövcud olmuş monumental sənət ənənələrinə qayıdışı müşahidə etmək mümkün oldu. Əgər 60-cı illərdə görülən işlərdəki monumentallıq hələ arzulanan səviyyədə deyidisə, yetmişinci illərdə bunun əksini görmək mümkündür. Bunu o dövrdə ərsəyə gətirilmiş həm mozaik pannoların, həm də divar təsvirlərinin timsalında görmək mümkündür. Qeyd edək ki, toxunduğmuz mərhələdə Azərbaycan incəsənəti üçün bir qədər yeni olan mozaikaya meyl monumental-dekorativ rəngkarlığa nisbətən daha çox idi.

Bu dövrə aid Xalq rəssamı Qəzənfər Xalıqovun Bakının Zuqulba qəsəbəsindəki “Buzovnaneft” mədəniyyət sarayının foyesini bəzəyən “Xəmsə” süjetlərindən ibarət mozaik təsvirləri, Oqtay Şıxəliyevin yaradıcılığının əsas qayəsini təşkil edən ölkənin müxtəlif şəhərlərinin ictimai binalarını bəzəyən, tək və yaxud həmkarları Mirzağa Qafarovla, Hacıbala Rəcəbovla birgə müəllifi olduğu mozaik pannolar da bu qəbildəndir.

1967-ci ildən fəaliyyətə başlayan Bakı metrosunun “Neftçilər” (Arif Ağamalov, Mirzağa Qafarov), “Gənclik” (Rasim Xələfov), “Nizami” (Mikayıl Abdullayev), “Sahil”( Xəlil Əliyev ),“N.Nərimanov” (Xəlil Əliyev), “28 may” (Xəlil Əliyev), “20 yanvar” (Şükür Abbasov) stansiyalarının yeraltı hissələrinin müxtəlif dövrlərdə monumental-dekorativ rəngkarlıq nümunələri metropolitenin müxtəlif stansiyalarının tərtibatına bədii dəyər qataraq, yeraltı tikilinin divarlarında bədii sintezin tələblərinə cavab verib, ölçü və rəng baxımından monumentallığın yüksəlməsinə xidmət etmişlər. Son nəticədə, Azərbaycan təsviri sənətinin çox maraqlı əsərlərlə zənginləşməsinə səbəb olmuşdur.

Ötən əsrin 70-80-ci illərində paytaxtın və onun ətrafındakı məkanların ayrılmaz hissəsinə çevrilən yeni monumental-dekorativ sənət nümunələrində müəlliflərin müxtəlif mövzuların müasirliyi duyulan bədii həll vasitəsilə icra edildiyinə şahidlik etmək mümkündür. Bunu qrafika ustası, Əməkdar rəssam N.Hacıyevin, monumentalçı-rəssamlardan H.Ələsgərov, F.İbrahimov, Z.Mütəllibov, Y.Mehdiyev, Ə.Əhmədov və b. yaratdıqları müxtəlif məzmunlu əsərlərində aydın görmək olar. Azərbaycan monumental-dekorativ rəngkarlığının bədii-texniki ifadə imkanlarının çoxəsrlik inkişaf mənzərəsinə diqqət yetirdikdə, onun təkcə kaşılı pannolardan, mozaika və divar rəmlərindən ibarət olmadığını görmək mümkündür. Müharibədən sonra SSRİ-nin mərkəzi şəhərlərində monumental və dekorativ-tətbiqi sənət üzrə ali təhsil alıb Bakıya qayıdan yaradıcıların yiyələndikləri peşələrin spesifik imkanlarından müxtəlif funksiyalı tikililərin tərtibatında istifadə cəhdləri də bunu təsdiqləyir.

H.Hüseynov, A. Ağamalov, A. Hacıyev, A. Nuriyev, M. Qafarov, S.Mirzəzadə, R.Bağırov, Z. Hüseynov, R.Həsənov, Ay.Rəhimov, R. İbrahimov, S. Məmmədov, E.Əhmədov, A.Mehdiyev, Ə.İbadullayev, Ə. Qarayev, Rafiq Kərimov, N.Qocamanlı, T.Məmmədova, M.Avşar, A.Şıxəliyev, Ə.Yusifov, E.Məmmədov, A.Rzaquliyev, Tahir və Nəsrulla Sadıxovlar və başqa neçə-neçə sənətkarın dekorativ-tətbiqi sənətin ən

ayrı-ayrı növlərinin estetikasının monumentallıq yaratmaq gücünü müxtəlif funksiyalı memarlıq tikililərin ümumi tutumunda “əridə” bildiklərinə aid çoxsaylı nümunələr vardır.

Şüşə materialına ənənəvi müraciətin XX əsrin ikinci yarısından başlayaraq güclənməsinin kökündə bu sahədə xüsusi ixtisas təhsili alanların çoxalması dururdu. Şüşənin memarlıqda tətbiqinin yeni forma-məzmun və texnologiya ilə zənginləşməsi onun yetmişinci-səksəninci illərdə Bakıdakı bir-neçə ictimai tikilidə istfadəsinə yol açdı. Zamanında paytaxtın ən nüfuzlu mehmanxanalarından hesab olunan “Azərbaycan” (müəllifi Hüseynəli Hüseynovdur) və “Moskva”nın (müəllifi Hacıbala Rəcəbovdur) memarlığına daxil edilən süjetli vitraj-şəbəkələri bu sahədə yaradılan ən uğurlu nümunələrdən saymaq olar.

İyirminci yüzilliyin ikinci yarısında şəbəkə-vitraj ənənələrinin yaşadılması və yeni bədii-estetik keyfiyyətlərlə zənginləşməsi davam etdirilmişdir. Xalq rəssamı Altay Hacıyevin “Lukoyl” neft şirkətinin Bakı ofisinin interyerini bəzəyən altı vitrajda (1999) onun bir qədər də müasirləşdirilmiş bədii həllini görmək mümkündür. Belə ki, binanın daxilinə atmosferdən daxil olan təbii işığın şüşənin bədii tutumunun təsirini artırdığı birmənalıdır.

Sovet dönəmində vitrajın bədii-texniki imkanlarının yeniləşməsində əsas rolu olan Ağasaleh Nuriyev müxtəlif funksiyalı tikililərin bədii tərtibatında davamlı şəkildə iştirak etmişdir. Onun yetmişinci-səksəninci illərdə ərsəyə gətirdiyi müxtəlif mövzulu vitrajların bədii tutumunda məkanın monumentallığını şərtləndirən estetik dəyərlərin mövcudluğundandır ki, bu cür bədii-mənəvi qaynaqlara tələbat hiss olunmaqdadır.

Qədimlərdən keramikanın memarlığımızda tətbiqi ənənəsi də sovet dönəmində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Zaman-zaman monumentalçı və keramikaçı-rəssamlarımız bu qədim materialın bədii-texniki imkanlarını tikililərin bədii dəyərinin yüksəldilməsinə yönəldə bilmişlər. Bunların arasında şamotdan hazırlanmış monumental tərtibat işləri çoxluq təşkil edir.

Rafiq İbrahimovun Bakı Bulka-maya kombinatında (1984) “Bolluq” və Bakıdakı “Soyuzpeçat” agentliyində “İstirahət” mövzusunda, Əli İbadullayevin Tolyatti şəhərindəki Xüsusi avtomərkəzdə (1984) “Toy” mövzusunda, Rafiq Kərimov və Ənvər Qarayevin Şamaxı şəhərində (1986) “Şamaxının inkişaf tarixi”, Nicat Qocamanlının Bakıdakı “Qobustan” qoruğun müdiriyyətində (1979)

“Qobustana həsr olunur” mövzusunda, Asəf Mehdiyev, Eldar Əhmədov və Səlhab Məmmədovun Bakıdakı “İnturist” mehmanxanasında (1969) “Bizim şəhər” mövzusunda, Nəsrulla və Tahir Sadıxovların Bakıdakı “Nərgiz” kafesində (1987) “Xalq motivləri” və Dənizkənarı bulvar kafesində (1988) “İlham pəriləri” mövzusunda hazırladıqları monumental-dekorativ tərtibatlarda əldə olunan rəng və forma-biçim müxtəlifliyinin obyektlərə özünəməxsusluqla yanaşı, onların qərarlaşdıqları məkanlara müxtəlif miqyaslı bədii-möhtəşəmlik bəxş etmələri də danılmazdır.

İyirminci yüzilliyin son qərinəsində qədim kaşılı divar pannoları ənənəsinə qayıdışın uğurlu nəticələri göstərir ki, müasirliklə milli koloritin əldə olunmasında əski, amma heç vaxt köhnəlməyən ənənələrdən yaradıcılıqla istifadəsindən müsbət nəticələr də əldə etmək mümkündür. Bunu Xalq rəssamı Sirus Mirzəzadənin Azərbacan Dövlət Gənc Tamaşaçılar Teatrının fasadında işlədiyi “Qurama” (1987) və M.İsgəndərov, M.Hüseynov, A.Mehdiyev və A.Kərimovun Bakıdakı “Gənclik” istirahət zonasının hovuzu üçün işlədikləri “İstirahət” adlı kompozisiyalarında (1980-ci illər) görmək mümkündür. S.Mirzəzadənin xalq dekorativ-tətbiqi sənəti motivləri əsasında işlədiyi panno (ümumi sahəsi 80 kvadratmetr) özünün qızılı-qəhvəyi koloritli səthindən “boylanan” naxış elementləri məcmusu ilə sənət məbədində yaşanan sənətkarlıq nümunələrinə keçid - “ipucu” kimi düşünüldüyünü söyləmək olar.

90-ci illərdə Azərbaycan müstəqillik qazandıqdan sonra ölkənin milli mədəniyyətinin inkişafında yeni dövr başladı. Sovet dövrünə aid sosialist dəyərlərə malik mədəniyyəti artıq bu dövrdə yeni məzmun kəsb edən milli-mənəvi dəyərlər qabartdı, milli birlik, çağdaşlıq kimi yeni meyarlara təməl yaratdı.

Bu mənəvi dəyərlər tədricən rəssamların yaradıcılığının əsas meyarına çevrilməyə başladı. Sosial-siyasi mövzular rəssamların yaradıcılığının ana xəttini təşkil edərək milli vətənpərvərlik duyğularını müasirliklə milli koloritin əldə olunmasında əsk etdirərək, heç vaxt köhnəlməyən ənənələrdən yaradıcı bəhrələnərək qazandıqları müsbət nəticələri öz əsərlərinə hopdurdular.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir. Tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilib:

- Kaşılı divar pannolarının inşaat mədəniyyətinin zənginləşdirməsində yeri müəyyən olundu;

- Naxış - kaşı kompozisiyaların tikililərin eksteryerində monoxromik və polixromik tətbiqi gerçəkləşdi;

- memarlıqla onun forma-biçimini və estetik tutumunu zənginləşdirən divar rəsmlərinin sintezinin əldə olunması baş verdi;

- divar rəsmlərinin müxtəlif sənətkarların əsərlərindəki estetikadan qaynaqlanan özünəməxsus milli üslubun yaranması baş verdi;

- bu sahənin mövcud sistemdən qaynaqlanan "ideoloji çətir" altında olması mövzu tutumunun asılılıqdan azad olmayan müxtəlifliyinə səbəb olmuşdur;

- monumentallığa fərdi yaradıcı münasibətdən asılı olaraq divar təsvirlərinin ifadə-bədii şərh rəngarəngliyi baş tutmuşdur;

- rəssam-memar anlaşmasının özündə sənətlərin sintezini yaşadan divar rəsmlərinin yaranmasını şərtləndirmişdir.

- mozaik tərtibatların estetik tutumundan yeni tikililərin funksiyalarına müvafiq bəzədilməsində istifadəsinə başlanması;

- eksteryer və interyerlərin tərtibatında bədii ifadə vasitələrinin məna-məzmun daşıyıcılığının qabardılmasına yönəldilməsi;

- relyefli mozaikaların tətbiqi ilə tikililərin fəza-məkan həllinin zənginləşdirilməsi;

- müasir zamanda monumental dekorativ divar rəngkarlığı həm funksional, texnoloji və stilistik baxımdan dəyişərək əsas mahiyyətinin interyerdə dekor funksiyası daşıması.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə əksini tapmışdır:**

1. Monumental incəsənət və mühitin formalaşmasında onun rolu // "Sivilizasiya" jurnalı. Bakı, 2016, № 2, s. 279-283.
2. Orta əsr Azərbaycan monumental-dekorativ rəngkarlığı // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2016, s. 343-347.
3. XVIII-XIX əsr yaşayış evlərinin divar təsvirlərinin bədii xüsusiyyətləri// "Qobustan" jurnalı, Bakı, 2018, № 3. s. 17-19.
4. Oqtay Şıxəliyev yaradıcılığında monumentallıq duyğusunun bədii təzahürü.// "Harmony" jurnalı, Bakı, 2018, http://harmony.musigidunya.az/RUS/reader.asp?txtid=761&s=1

5. Orta əsrlər kaşılı divar pannolarında monumentallığın əldə olunması mərhələləri. // “Mədəniyyət.az” jurnalı, Bakı, 2018, s.23-29.

6. Nizami Gencevi "Khamse"Si duvar tasvir sanatında. Sanat ve Estetik. Uluslararası sanat, estetik sempozyumu. Türkiyə, Elazığ, Fırat Universiteti. 19-20-21 aprel, 2018. http://www. sanatveestetik.com/.

7. Монументальные росписи тебризских мастеров на материале миниатюрной живописи. // Traditional and modern culture: history, actual situation, prospects. Materials of the VI international scientific conference. Prague: 2016, September 20-21. Стр. 44-50.

8. Мозаики «подземного мира» . Paradigmata poznani Prague, 2018, №1, стр. 94-98.

*Лимуна Огул гызы Ядигарова*

# МОНУМЕНТАЛЬНО ДЕКОРАТИВНАЯ ЖИВОПИСЬ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Данная диссертация посвящена исследованию монументально-декоративной живописи Азербайджана.

Диссертация состоит из введения, двух глав, четырех подглав, заключения, списка использованной литературы и списка иллюстраций.

Во введении обосновываются актуальность исследования, степень исследованности проблемы, цель и задачи, объект и предмет, методы исследования, рамки исследования, научная новизна, теоретическая и практическая значимость работы, даётся информация об апробации исследования и её структуре.

**В первой главе** под названием "**Формирование традиции монументально-декоративной живописи Азербайджана**» повествуется об этапах достижения монументализма в средневековых глазурованных настенных панно и об эстетике настенных росписей от средневековья до XIX века.

**Во второй главе** "**Азербайджанская монументально-декоративная живопись в контексте решения проблемы синтеза искусства**" рассказывается о художественных особенностях настенных росписей XX века и о роле мозаики в решении проблемы синтеза.

В **заключении** подводятся итоги анализа истории развития монументально-декоративной живописи Азербайджана и ее роль в решении проблем синтеза.

*Limuna Ogul Yadigarova*

## MONUMENTAL DECORATİVE PAİNTİNG OF AZERBAİJAN


## S U M M A R Y

The current dissertation is devoted to the monumental-decorative painting of Azerbaijan. The dissertation consists of introduction, three chapters, seven subchapters, conclusion, references and illustration list.

The introduction contains information about the relevance of the study, the degree of the problem's research, the purpose and objectives, the research methods, the scope of the research, the scientific novelty, the theoretical and practical significance of the work are substantiated, information is given on the approbation of the research and its structure.

**In the first chapter,** entitled "The formation of the tradition of monumental decorative painting of Azerbaijan" tells about the stages of achieving monumentalism in medieval glazed wall panels and the aesthetics of wall paintings from the Middle Ages to the 20th century.

**In the second chapter,** entitled "Azerbaijan Monumental Decorative Painting in the Context of Solving the Problem of Art Synthesis", the art features of 20th century wall paintings and the role of the mosaic in solving the synthesis problem are described.

The **conclusion** the results of the analysis of the history of the development of Azerbaijan's monumental- decorative painting and its role in solving synthesis problems are summarized.

Format: 60x84 16/1
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**ЛИМУНА ОГУЛ гызы ЯДИГАРОВА**

# МОНУМЕНТАЛЬНО ДЕКОРАТИВНАЯ ЖИВОПИСЬ АЗЕРБАЙДЖАНА

**Специальность:** 6215.01 – “Изобразительное искусство”

**А В Т О Р Е Ф Е Р А Т**
на соискание ученой степени доктора философии
в области искусствоведения

**БАКУ-2018**